# Pərdələrdə dil açan duyğular



*Milli musiqi mədəniyyətimizin nadir incisi sayılan tar milyonların marağına səbəb olub. Unudulmaz ustad tarzənlər Sadıqcan, Qurban Pirimov, Əhməd Bakıxanov, Bəhram Mansurov, Əhsən Dadaşov, Baba Salahov və başqaları Azərbaycandakı tar ifaçılığı məktəbinin ənənəsini daim qoruyub saxlamağı gənc həmkarlarına tövsiyə etmişlər. Bu gün həmin insanların layiqli davamçıları var. Onlardan biri də xalq artisti, prezident mükafatı laureatı, professor Ramiz Quliyevdir.*

O altmış il əvvəl Ağdam şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Şəhər 5 saylı orta məktəbdə oxumaqla, eyni zamanda yeddiillik musiqi məktəbində də təhsil alıb. Tara sevgisi o qədər çox olub ki, hələ gənclik dövründə ifaları könül oxşamaqla yanaşı, həm də bir sənətçi kimi nüfuz qazanıb. Ramiz Quliyev Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, təcrübəli pedaqoqlardan dərs almışdır. O, hələ tələbəlik illərindən istedadlı tarzən kimi tanınmışdı. Sonralar konservatoriyada xalq çalğı alətləri kafedrasında tar ixtisası üzrə müəllim, baş müəllim, dosent, professor kimi fəaliyyət göstərib. On il həmin kafedraya rəhbərlik edib.

Ramiz Quliyev yalnız Azərbaycan dinləyicilərini deyil, dinindən, dilindən asılı olmayaraq, bütün dünyada tara meyl göstərənləri mahir ifası ilə heyrətə gətirir. Çünki mizrabı əlində məhəbbətlə tutur, barmaqları sanki pərdələrdə yox, ürəklərdə gəzir. Dil ilə deyə bilmədiyini mizrabla, zərif simlərlə, könül oxşayan notlarla səsləndirir. Sənəti ilə ad-san, şöhrət qazanır. Muğamı, mahnını dinləyicilərə çatdırmaq üçün məşq edir, təbii ki, çəkdiyi cəfaları da hədər getmir. Neçə-neçə mükafatlara, fəxri fərmanlara layiq görülüb.

Ramiz Quliyevin tarla ifa etdiyi "Segah" muğamı sanki Şuşanın işğalda çırpınan harayıdır. Ramizin sinəsində döyünən tarı necə nalə çəkir, fəryad qoparır? Xalq şairi Bəxtiyar Vahabzadənin sözlərini xatırladaq:

- Ramizin əvəzinə onun çaldığı tar dil açıb danışır. Mən öz təəssüratımı deyirəm. O, qismətinə sevinc çıxanları ürəkləndirir, nakamları, qüssəliləri daha da kədərləndirir. 1990-cı ilin yanvarında qeyrətli oğullarımızın Şəhidlər xiyabanında dəfn mərasimində onun tarı analardan, bacılardan, gəlinlərdən daha yanğılı ağlayırdı. "Zabul-Segah" muğamını bir dəfə eşidən heç vaxt onu unutmaz. Qəlbindən keçənləri mizrabla, pərdələrlə səsləndirir. Onun hər bir ifasını eşidəndə xəyalımdan keçənlər həqiqət kimi gözlərim önündə canlanır. Ramiz Quliyev Qərb bəstəkarlarının əsərlərində də öz milli duyumunu, düşüncələrini səsləndirə bilir. Fikrimcə, tarda əcnəbi xalqlara mənsub musiqini çalmaq yeni hadisədir. Bir var kimisə yamsılayasan, bir də var ki, həmin musiqiyə münasibətini ifa bacarığınla bildirəsən. Müəyyən not, qammaları özününküləşdirəsən. Sənətinə, ifa qabiliyyətinə büyük ehtiram bəslənən Ramiz bənzərsiz istedad sahibidir.

Onun fenomen virtiozluğu, nadir istedadı, muğam ustalığı ilə dünya klassiklərinin əsərlərinin ifasını məharətlə özündə birləşdirməsi, azərbay-

canlı ifaçını zəmanəmizin böyük sənətkarları arasına çıxardı. Tar üçün yazılan konsertlərin yaranmasına və gözəl ifasına görə bəstəkarlar ilk növbədə Ramiz Quliyevə borcludurlar. Yüksək səviyyəli ifaçılıq qabiliyyətinə, üslubuna, bacarığına malik tarzən həm də bənzərsiz improvizatordur. Hər hansı bir əsəri çalanda mütləq bir yenilik edir. Onun ifaları dinləyiciləri yormur, əksinə, həvəslə dinlənilir. O, "Segah", "Cahargah", "Orta Mahur" muğamlarını son dərəcə məharətlə, özünəməxsus üslubda ifa edir. Buna görə də onu Azərbaycan tar ifaçılıq məktəbinin öz yolu olan sənətkarı kimi tanıyırlar. Tarzənin solo çıxışları tamaşıçılara ansamblın ifasını xatırladır. Çünki dinləyicilər həmin çalğılardan zövq alırlar. Özü isə könül açdığı sənətin zirvəsinə ucalır.

R.Quliyevin çəkdiyi əziyyətlərlə yanaşı, bəxti də üzünə gülüb. Görkəmli şəxsiyyətlər, musiqisevərlər onu ifaçılığa daha da ruhlandırmışlar. Dünya şöhrətli müğənni Rəşid Behbudov demişdir ki, xalqın tarixi musiqi aləti olan tar istedadlı, mahir tarzən Ramiz Quliyevin səslənməsində yeni dönüş yaradır, yaşamaq hüququ qazanır. Onun adı da milli musiqimizin klassikləri ilə birgə çəkilməyə layiqdir.

Xalıq mahnılarını, muğamları canından artıq sevən, bu yolda ilk addımlarını atanlara qədərsiz qayğı göstərən, sənəti ilə həmişəyaşarlıq qazanan mayestro Niyazi isə fikrini belə bildirmişdi: "Ramiz Quliyevin sənətə gətirdiyi yeniliklər tar ifaçılığını daha da rəngarəng edib. Onun orijinal dəstti-xətti var, tarzənlər arasında yaradıcı sənətkardır. İfaları yalnız muğam səsləndirməklə məhdudlaşmır. O, həm ansambl solisti, həm də müxtəlif repertuarla çıxış edən orkestr solistidir"

R.Quliyev sevilən, tamaşaçılar tərəfindən alqışlarla qarşılanan, dinləyicilərin rəğbətini qazanmış sənətkardır. Onun yaradıcılığı pedaqoji fəaliyyətlə də sıx bağlıdır. Hər iki sahədə olduqca məharətlə, həvəslə fəaliyyət göstərir. O, respublikamızda, yaxın-uzaq ölkələrdə ad-san qazanmış, zəngin təcrübəyə malik pedaqoqdur. Müxtəlif musiqi məktəblərində 30 ildən artıqdır ki, tar ifaçılığı üzrə mütəxəssis kadrlar yetişdirir.

R.Quliyevin ifasının - istər xalq mahnıları, muğamlar, bəstəkar əsərləri olsun, istərsə də dünya şöhrətli bəstəkarların müxtəlif janrlarda yazdıqları əsərlər-onların hər birini həyəcansız dinləmək mümkün deyil. Çünki hər hansısa bir əsəri ifa etməzdən öncə mövzu ilə tanış olur, axtarışlar aparır. Yeri gələndə qəmli notlara, yaxud sevincli çalarlara üstünlük verir. Nəticə isə uğurlu alınır, eşidənləri valeh edir.

Sevimli tarzən, milli musiqimizi varlığı qədər sevən, tar ifaçılığı ənənəsinə sadiq Ramiz Quliyevin 60 yaşı tamam olur. Tarzənə yaradıcılıq uğurları, cansağlığı arzulayırıq.

**T. MEHDİXANLI**